Aqrar Xidmətlər Agentliyi

# KARTOFDA FİTOFTORA
## (Phytophthora infestans)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Fitoftora xəstəliyinin törədicisi Phytophtora infestans patogenidir. Xəstəliyin inkubasiya dövrü havanın istiliyindən asılıdır. Göbələyin mitselisinin inkişafı üçün minimal temperatur 1-3$^0$C, maksimum temperatur isə 30$^0$C hesab edilir. Fitoftora bitkinin həm yarpaqlarını, həm də yumrularını zədələyir. Sahələrdə əvvəlcə kartofların üzərində tək-tək (seyrək), yaxud külli miqdarda əzilmiş ləkələr əmələ gəlir. Ləkəli hissə kəsildikdə onların altında boz, yaxud qonurlaşmış sahələr aydın görünür. Kartof anbarda saxlandığı dövrdə onun toxumasının zədələnmiş yerləri çürüməyə başlayır.

## Mübarizə tədbirləri

- Təmiz kök yumruları istifadə edilməlidir;
- Ciddi sirayətlənmiş və məhv olmuş bitkilər çıxarılıb, sahədən uzaqlaşdırılmalıdır;
- Anbarda saxlanmazdan əvvəl yumrular normal nəmliyə qədər qurudulmalıdır;
- Anbar xəstəliyin inkişafına imkan verməyəcək şəkildə tənzimlənməlidir.

**Təsiredici maddəsi** Təsiredici maddəsi Misxlorid +çimoksamil (2,5kq/ha), Mancozeb+dimetomorf (2kq/ha), Mancozeb+mefenoxam (2,5kq/ha) preparatların biri ilə kimyəvi mübarizə aparıla bilər.



**Yetkin fərd**



**Zədəsi**